# ATAKİŞİYEV İNTİQAM VAHİD OĞLU



Atakişiyev İntiqam 7 aprel 1974-cü ildə Qəbələ rayonunun Tüntül kəndində kolxozçu ailəsində anadan olub. 1991-ci ildə Tüntül kənd orta məktəbini bitirib. 1992-ci ildə Qəbələ rayon Hərbi Komissarlığı tərəfindən Milli Orduya çağırılıb. Ordu sıralarında nümunəvi əsgər kimi xidmət edir. Yüksək əsgəri keyfiyyətlərini nəzərə alıb, onu Türkiyəyə hərbi zabitlər kursuna göndərirlər. O, orduya çağırıldığı ilk günlərdən ön cəbhədə olmuşdur. Ağdam, Tərtər və Qubadlı rayonlarında gedən ağır döyüşlərdə Öz şücaətini nümayiş etdirmişdir. İntiqam Murovdağ döyüşlərinin birində yaralanır. Mingəçevirdə yerləşən hərbi hospitalda iki ay müalicə olunduqdan sonra yenidən döyüş bölgəsinə qayıdır. Öz xidməti borcunu layiqincə yerinə yetirən cəsur döyüşçü 1995-ci ilin martında dövlətçiliyimiz əleyhinə yönəldilmiş qəsdin aradan qaldırılmasında fəal iştirak etmiş, igidlik nümunəsi göstərmişdir. İntiqam Atakişiyev 776 saylı hərbi hissənin qrup komandiri, bölük komandirinin müavini, bölük komandiri vəzifələrində çalışmış, kapitan rütbəsinəcən yüksəlmişdir. Azərbaycan Respublikası prezidentinin 4 aprel 1995-ci il tarixli 307 saylı fərmanı ilə Atakişiyev İntiqam Vahid oğluna “Azərbaycanın Milli Qəhrəmanı” adı verilmişdir. Kapitan İ.Atakişiyev 776 saylı hərbi hissə komandirinin maddi texniki təminat üzrə müavini vəzifəsində çalışmışdır. İki övladı var.